# M.Ə. Rəsulzadə Türkiyədən niyə getdi?

written by Altay Goyushov Altay Göyüşov

M.Ə. Rəsulzadənin Türkiyədən Avropaya köçməsi məsələsinə həm bizim, həm Türkiyə tarixçilərinin sanballı əsərlərində toxunulub.[i] Memuarlarda da bu məsələ öz əksini tapır. Ona görə də mən indi yalnız mövcud ədəbiyyatların verdiyi məlumatları ümumiləşdirərək, bəzi mülahizələrimlə birgə sizinlə bölüşməyə çalışacağam. Bununla belə, düşünürəm ki, problemin Türkiyə və Rusiya arxiv materialları əsasında ayrıca araşdırılması da pis olmazdı.

**Rəsulzadə Türkiyəni nə vaxt tərk edib?**

Ədəbiyyatda Rəsulzadənin Türkiyədən getməsinin 1928-1931-ci illər arasında baş verməsi haqqında fərqli məlumatlar var. Amma çoxluq 1931-ci il tarixinə üstünlük verir. Hərçənd, özü məktublarında 1930-cu ildən Polşada yaşadığını, Türkiyəyə daxil olmaq üçün izin verilmədiyini yazır. İkincisi, özünün getməsi, yaxud ölkədən çıxarılması barədə də fikirlər haçalanır. Lakin burada da görünən odur ki, çoxluq çıxarılması versiyasına üstünlük verir.

Nəhayət getməsinin, yaxud çıxarılmasının səbəbləri barədə danışarkən ədəbiyyat daha çox Rusiyanın təzyiqini başlıca səbəb kimi göstərir. Amma müəlliflər Türkiyənin daxili və xarici siyasətindəki digər prosesləri də təsiredici səbəblər sırasında sadalayırlar. Mənim üçün maraqlı olan isə ağırlıq çəkisinin məhz son qərar anında hansı səbəblərin üstünə düşməsidir.

**Rusiya basqısı**

Yuxarıda qeyd etdiyimiz kimi Azərbaycan tarixçiləri başlıca səbəb kimi SSRİ hökumətinin Türkiyəyə etdiyi təzyiqləri vurğulayırlar. Bu zaman 1921-ci ildə Atatürk hərəkatı ilə

Sovet Rusiyası arasındakı Moskva anlaşmasının 8-ci və yenə həmin ildə birincinin Cənubi Qafqazın sovet respublikaları ilə imzaladığı Qars müqaviləsinin 10-cu maddələrindəki tərəflərin öz nəzarəti altında olan ərazilərdə digər ölkənin müxalif qruplarına fəaliyyət imkanı verməmək haqqında öhdəliklərinə, nəhayət Türkiyə Cümhuriyyəti ilə SSRİ arasındakı mütəmadi yenilənməsi nəzərdə tutulan 1925-ci il razılaşmasına istinad edirlər. Amma bu müqavilələrdən sonrakı bir neçə il ərzində Rəsulzadə Türkiyədə fəaliyyətini məhdudlaşdırmayıb. Həm təşkilatı, həm də nəşr işləri ilə kəskin ideoloji antisovet fəaliyyətini davam etdirib. Lakin 1920-ci illərin sonlarından etibarən sovetlərin siyasətində köklü dəyişikliklər baş verir, repressiya siyasəti tədricən şiddətlənmə istiqamətində inkişaf edir və bu zaman ölkədən kənarda yaşayan mühacirlərin anti-sovet fəaliyyətinə qarşı da tədbirlər görmək planları işə düşür.

Ədəbiyyatda sovet basqısının 1931-ci ildə Türkiyə və SSRİ xarici işlər idarələri rəhbərlərinin təmaslarında kulminasiya nöqtəsinə çatdığı, həmin il 1925-ci il müqaviləsini növbəti dəfə yeniləyən protokol imzalanarkən ora əlavə məxfi hissənin salındığı və məhz onun əsasında mühacirətə təzyiqlərin həyata keçirildiyi, Rəsulzadənin də nəticədə ölkədən deportasiya olunduğu qeyd edilir.

Bununla belə, məsələni yalnız Sovet Rusiyası basqısı ilə çərçivələndirmək kifayət deyil. Sözsüz ki, bolşeviklərin Türkiyə hökumətindən getdikcə güclənən tələbləri və təzyiqləri var idi. Amma Türkiyə hökumətinin mövqeyi tamamilə bu təzyiqlər səbəbilə deyil, həmçinin öz siyasi motivləri əsasında formalaşırdı.

Məsələn, Azərbaycan nəşrlərinin qadağan olunması haqqında rəsmi əmr, haqqında danışılan protokolun imzalanmasından bir neçə ay əvvəl verilib. İkincisi, necə olur ki, Sovet Rusiyasından 1921-ci ildə, yaxud 1925-ci ildə daha çox asılı olan, onunla daha yaxın olan Türkiyə basqılara tab gətirir, müqavilələrin şərtlərini yerinə yetirmir, amma kifayət qədər

oturuşmuş Türkiyə Cümhuriyyəti 1931-ci ildə artıq təzyiqlərə müqavimət göstərə bilmir? Axı, dinamika da indi əksinə idi. 1931-ci ildə Türkiyə *Cahanda sülh* şüarı ilə neytrallıq eksperimentinə başlayır və 1932-ci ildən sonra Qərbə tədricən yaxınlaşma yolu tuturdu.

Qısası, gəldiyim qənaət budur ki, Rusiya Türkiyəyə 1931-ci ildə sonuncunun qəti şəkildə istəmədiyi qərarları qəbul etdirə bilməzdi. Sovet Rusiyası belə bir gücə yalnız 1945-ci ildə malik olacaqdı. İndi isə Türkiyənin Rusiyadan asılılığı 1920-1921, 1925-ci illərdəki kimi deyildi. Tələb həmişə var idi, lakin məhz indi Türkiyənin Azərbaycan nəşrlərini bağlamaq kimi asan olmayan qərarına öz motivləri olmalı idi.

**Türk ocaqları**

Sovet Rusiyasından gələn türk siyasi mühacirətinin, belə demək olarsa, mərkəzi, Türk ocaqları idi. Vaxtilə Balkanlardan gələn qaçqınlara yardım etmək üçün formalaşmış bu təşkilat indi də Türkiyə Cümhuriyyəti hökuməti ilə Rusiyadan köçən siyasi mühacirlər arasında bir körpü rolunu oynayırdı. Türk ocaqları vasitəsilə bizim mühacirlərə, o cümlədən Rəsulzadəyə maddi yardım edilirdi. Ocaqların başçısı və Türkiyə Cümhuriyyətinin nüfuzlu rəsmisi olmuş Həmdullah Sübhi Tanrıövər mühacirətin ən çox təmasda olduğu yerli siyasətçi idi.

Əsarət altında yaşayan türklərin milli haqları uğrunda siyasi mübarizəsində mühüm bir vasitə olan, xeyli mühaciri ətrafına toplayan ocaqların fəaliyyətini Türkiyə hökuməti, xüsusən 1927-ci ildən sonra daxili siyasətlə çərçivələndirməyə başlayır. Atatürk indi onların özünün Türkiyədəki etibarlı siyasi dayaqlarından birinə çevrilməsini istəyirdi. Ocaqların xaricdə şöbələrinin açılması, ümumən xaricdə yaşayan türklərlə siyasi əlaqələrinin durdurulması yolu tutulurdu.

Məhz 1927-ci ildən Türkiyə Azərbaycan Milli Mərkəzinə maddi yardımını da dayandırmışdı. Həmin il Rəsulzadənin *Yeni Qafqaziya* dərgisinin də nəşri kəsilmişdi. Siyası fəaliyyətin bu cür çərçivələnməsi, aydındır ki, prioriteti mənsub olduğu

xalqların istiqlalı olan mühacirləri qane edə bilməzdi. Mühacirlərin aktiv hissəsi narazı qalır və Türkiyə hökumətinə qarşı açıq-aşkar tənqidi mövqe nümayiş etdirməyə başlayırdı.

Nəhayət, ocaqlarda Türkiyənin içindən turançılıq tərəfdarları da toplanmışdı. İstər-istəməz hökumətlə ocaqların fəalları arasında bir ideoloji ziddiyyət yaranırdı. Məhz türk ocaqlarının fəaliyyətində bu cür dönüş sovetlərdən gələn mühacirlərlə Türkiyə hökuməti arasında münasibətlərdə bir problemə çevrilir. Rəsulzadə isə bu dövrdə tam əksinə mübarizəsini Sovet Rusiyasından gələn türk-müsəlman xalqlarının nümayəndələri ilə yanaşı, bolşeviklərdən qaçıb Avropada yerləşmiş qeyri-türk, qeyri-müsəlman mühacir qruplarla ittifaqda birləşdirmək prosesinin içinə daxil olurdu. Rəsulzadə bir dəfə Atatürkün Sovet Rusiyası ilə əlaqələrinin Azərbaycanın istiqlalının itirilməsi ilə nəticələnməsini görmüşdü. İndi də faktiki 1920-ci ilin aprelində olan situasiyaya oxşar bir durum yaranmışdı. Rəsulzadəyə Rusiyaya qarşı aktiv ümumi mübarizə lazım idi. Türkiyənin prioritetləri isə fərqli idi. Rəsulzadəni də bu prioritetlərə uyğun hərəkət etməyə, başqa sözlə, konkret məqamda mübarizəsini zəiflətməyə razı salmaq mümkünsüz olardı. Nəticədə bu ziddiyyət ona gətirib çıxardır ki, Azərbaycan mühacirlərinə məxsus sənədlər türk hökuməti tərəfindən müsadirə olunur, axtarışlar aparılır.

Aydındır ki, Şəfi bəy Rüstəmbəyov Rəsulzadəni “dövlətin içində dövlət qurmaqda, ev sahibinin qonaqpərvərliyini anlamamaqda, xəbərdarlıqları nəzərə almamaqda” günahlandırarkən onun “ipə-sapa yatmamasını” irad tuturdu.

**Türkiyədəki daxili vəziyyət**

1930-31-ci illər Türkiyədəki daxili siyasət nöqteyi-nəzərindən çox gərgin olmuşdu. Atatürk hökuməti ilə Türk ocaqları arasındakı xarici siyasətə baxışdakı fərqlilik daxili proseslərdə qismən ayrılığa nədən olmuşdu. Atatürk ölkədə çoxpartiyalı sistemin yaradılması üçün yeni bir cəhd edir.

Əsasən qərbyönümlülərdən ibarət *Sərbəst firqə* adında yeni partiya yaradılır ki, ölkədəki bələdiyyə seçkilərində iştirak etsin. Hakimiyyətin gözləntisinin əksinə olaraq, Aydın kimi bir çox yerlərdə Türk ocaqları Atatürkün Cümhuriyyət Xalq Partiyasına (CXP) deyil, liberal Sərbəst firqəyə dəstək verir. Üstəgəl, Türk ocaqlarının sabiq rəhbərlərindən Mehmet Emin Yurdakul, həmçinin bu ocaqlarla həmişə sıx əlaqəsi olmuş Əhməd Ağaoğlu da yeni partiyanın aparıcı fiqurları olurlar.

Sərbəst firqə camaat arasında az bir zamanda böyük nüfuz qazanır. Bunlar Cümhuriyyət Xalq Partiyasını narahat edirdi. Demokratiya eksperimenti ölkədə ciddi, tezliklə iqtidar ola biləcək güclü bir müxalifətin formalaşmasına aparırdı. Nəticədə 1930-cu ildə Sərbəst firqənin, 1931-ci ildə isə Türk ocaqlarının müstəqil fəaliyyəti dayandırıldı.

Həm daxili və xarici siyasi situasiyaya, həm də iqtisadi problemlərə cavab olaraq Türkiyə hökuməti birpartiyalı sistemi möhkəmləndirmək yolu tutdu və aktiv şəkildə alternativ fikri susdurmağa başladı. *Cahanda sülh* neytrallıq idisə, *yurdda sülh* daxili stabillik adı ilə birpartiyalı sistemin möhkəmləndirilməsi idi. Rəsulzadəyə də 1920-ci ildə “ingilisçi Müsavatın” rəhbəri deyənlər, 1931-ci ildə onun bütün nəşrlərinə klassik, “əcnəbi politikası əlində alət” damğası vurub bağladılar.

Türk Ocaqlarının başqanı Tanrövər də siyasi sürgünə, Rumıniyaya səfir göndərildi. Türkiyədən çıxan Rəsulzadə əvvəl Sovet Rusiyası ilə mübarizənin mərkəzlərindən birinə çevrilmiş Polşaya getsə də, Tanrıövərlə təmaslarını davam etdirirdi. Polşanın nasistlər və ruslar tərəfindən işğalından sonra da məhz Rumıniyaya Tanrıövərin yanına gedib, bir müddət orada fəaliyyət göstərəcəkdi.

SSRİ isə müharibə qurtaran kimi, 1945-ci ildə nota verərək Türkiyə ilə 1925-ci il müqaviləsindən çıxdığını bildirir və Türkiyənin üzünü birmənalı şəkildə Qərbə çevirməkdən başqa çarəsi qalmır. Rəsulzadə də CXP millət vəkili olmuş

Tanrıövərin köməkliyi ilə 1947-ci ildə Türkiyə vətəndaşlığı alır. Tanrıövərin sədrliyi ilə Türk ocaqları da 1949-cu ildə fəaliyyətini bərpa edir. Növbəti il isə Tanrıövər artıq Demokrat partiyası siyahısından millət vəkili seçilir.

**Qeyd:**

[i] Bu yazı ilk dəfə BBC Azərbaycan servisinin saytında 9 mart 2017-ci ildə işıq üzü görmüşdür: https://www.bbc.com/azeri/analysis-39221340